# XVII-XX ƏSRLƏRDƏ QƏRBİ AZƏRBAYCANDA İCTİMAI-SİYASİ VƏ TARİXİ-MƏDƏNİ MÜHİT

Şəfahət ƏLİYEV*

**Xülasə:** Dünya xalqlarının tarixində köçün humanitar fəlakət (burada digər fəlakətlər də var) kimi yaşatdığı fəsadlar orta əsrlərin dərinliklərindən üzü bəri müxtəlif problemlərə, qarşıdurmalara, böyük axınlara və faciələrə yol açmışdır. Şərqdən Qərbə istiqamətlənən axınlar, eləcə də Reyn, Sena, Dunay çayı mənbələrindən Avropaya olan köçlər ucu-bucağı görünməyən qarşıdurmalara, assimilyasiyaya, işğallara gətirib çıxarmışdır. Xalqların şifahi və yazılı yaddaşına öz izini qoymuş bu proses etnokulturoloji məfkurədə bütöv məzmunu ilə geniş araşdırmaları mahiyyəti üzrə zərurətə çevirmişdir. Geosiyasi, geoiqtisadi, geomədəni, geoetnik mənzərəsi ilə eyni formulanı sərgiləyən köçlər tipoloji yanaşmalarda fərqliliklərin müəyyənlik konseptini də bir proses olaraq içində hazırlayır. Son olaraq bunlar imperiyanın işğalçılıq siyasətində özünə yer almış ideolojilərə dayanmaqla demoqrafik dəyişmələrə, coğrafi deformasiyadan etnik deformasiyaya qədər mürəkkəb bir prosesi özündə ehtiva edir. XIX-XX yüzillik boyu Azərbaycan timsalında baş verənlər bunun tipik örnəyidir və müxtəlif yanaşmalarda ortaya çıxan formul və tarixi faktlar daha mürəkkəb və həm də daha fərqli fəlakət modelini müəyyənləşdirir. Azərbaycan xalqının tarixində köçürülmə, zor gücünə öz yurd yerlərini tərk etməyə məcur edilmə, siyasi repressiyalar tarixin müxtəlif dövrlərini əhatə edir. Bu proses Çar Rusiyasının Qafqaz işğalı və 1918-ci il Azərbaycan Demokratik Respublikasının bolşevik hakimiyyəti tərəfindən işal edilməsi ilə davam etmişdir.

***Açar sözlər:*** *Köç, işğal, türklər, Türmənçay, imperiya, çar Rusiyası, Nadir şah, Qərbi Azərbaycan, oğuz*

**The Social-Political and Historical-Cultural Environment of Western Azerbaijan in the 17th-20th Centuries**

**Abstarct:** In the history of world nations, the consequences of migration, often experienced as a humanitarian disaster (along with other disasters), have led to various problems, confrontations, mass movements, and tragedies, dating back to the depths of the Middle Ages. The migrations directed from East to West, as well as the migrations from the sources of the Rhine, Seine, and Danube rivers to Europe, have resulted in endless confrontations, assimilation, and occupations. This process, which has left its mark on the oral and written memory of nations, has made it necessary to conduct extensive research in the field of ethno-culturalphilosophy.

Migrations, which exhibit the same pattern with their geopolitical, geo-economics, geo-cultural and geo-ethnic landscapes, also prepare the concept of differences in typological approaches as a process. Ultimately, these migrations, based on ideologies embedded in the imperialist occupation policies, encompass a complex process that includes demographic changes, from geographical deformation to ethnic deformation. The events that occurred in Azerbaijan throughout the 19th and 20th centuries serve as a typical example of this, and the formulas and historical facts emerging from various approaches reveal a more complex and distinct disaster model.

In the history of the Azerbaijani people, forced relocation, being compelled to abandon their homeland under force, and political repressions span various periods. This process continued with the Tsarist Russia's occupation of the Caucasus and the occupation of the Azerbaijan Democratic Republic by the Bolshevik government in 1918.

***Key Words****: migration, occupation, Turks, Turkmenchay, empire, Tsarist Russia, Nadir Shah, Western Azerbaijan, Oghuz*

## Giriş

Böyük mədəniyyətin yaradıcısı olan xalqlarda, cahanşümul dövlət məfkurəsi ilə öz mövcudluğunu ortaya qoymağa çalışan toplumlarda köç müsbət emosiyaya, vətənqurma düşüncəsinə yüklənir. Məsələn, türklərin qədim bahadırlıq dastanlarında özünü göstərən bozqır həyat tərzi, formalaşdırdığı yarımköçəri və köçəri yaşam fəlsəfəsi, hun-monqol axınları, Ural//Altay mədəniyyətinə dayananlar, Oğuz//turkman birliklərinin Şərqdən Qərbə hərəkətliliyi və s. bütün parametrlərdə dünya nizamına və onun formulasının işlənməsinə hesablanmışdır (Gökalp, 1976: 34). “Qalxıb köç elədi əfşar elləri” deyiminin müəyyənləşdirdiyi etnik şüur kodu, eləcə də “Oğuz Kağan”, “Boz Qurd”, “Köç”, “Şu” və s. kimi şedevrlərə dayanan hadisə (və proses) bütün parametrləri ilə tarixi müəyyənliyin arxetiplərini bir problem olaraq məzmununda sərgiləyir. Eyni zamanda burayaqədim türk epos təfəkkürünün müxtəlif mənbələrdə zəmanəmizə qədər gəlib çıxmış əsas əsərlərini “Yaradılış”, “Alp Ər Tonqa”, “Oğuz

---

* Dr., Bakı Avrasya Universiteti, Filalogiya Fakültəsi, Azərbaycan və Dünya Ədəbiyyatı Kafedrası, yeniavrasiy@gmail.com

Kağan", "Gök türk", "Ərgənəkon", "Siyenpi", dastanları, qədim türk (runik) yazılı abidələrini, müəyyən dərəcədə bir sıra uyğur abidələrini və Orxon-Yenisey (Orxan abidələri, Yenisey qəbir daşları) abidələrinin müsbət emosiyaya yüklənən dövlət və dövlətçilik məfkurəsini, mifoloji yaddaşdan gələn "müqəddəs nizam"ın yaradılmasının bir yaşam fəlsəfəsi olaraq reallaşdırılmasını da əlavə etdikdə mahiyyət daha da böyüyür. Azərbaycan və bütünlükdə türk xalqları səviyyəsində son iki yüz ildə baş verənlər isə tamamilə fərqli bir tipologiyanı müəyyənləşdirir (Gökalp, 1976: 35).

Azərbaycanın Rusiya tərəfindən işğalı, Gülüstan müqaviləsi (12 oktyabr 1813), Türkmənçay müqaviləsi (10 fevral 1828) böyük bir tarixi və zəngin mədəniyyəti olan xalqın fəlakətlərinin başlanğıcı oldu. Zəngin dövlətçilik məfkurəsinin rus şovinistləri tərəfindən sarsıdılaraq yox edilməsi sonrakı proseslərin reallaşmasına şərait yaratdı. Xalqın milli oyanışı bunların aradan qaldırılması və özünütəşkili baxımından daxili potensiyanın qorunmasını bir ana axar kimi intibahı başladı. Şah Abbasın hakimiyyətə gəlişi ilə başlayan mərkəzdən qaçma tendensiyası, paytaxtın Qəzvindən İsfahana köçürülməsi (1598), farslaşdırma siyasəti, Səfəvi Azərbaycan dövlətinin Səfəvi İran dövləti olaraq fəaliyyət proqramı bütün spektrləri ilə sonrakı dönəmdəki problemlərin çoxalan istiqamətdə gedişinə zəmin yaratdı (Süleymanov, 2018: 78). Xalqın bu mürəkkəb prosesin ziqzaqlı gedişinə milli özünüdərk və özünütəşkil formasında cavabı etnik-mədəni dəyərlər sistemində olanların qoruyuculuq missiyası ilə reallaşdı. "Koroğlu", "Tahir və Zöhrə", "Qərib və Şahsənəm", "Abbas və Gülgəz", "Qurbani", "Əsli və Kərəm" və s. kimi şedevrlərin mövcud boşluğu doldurması ilə etnik dominantlığın digər bir aparıcı axarı müəyyənləşdi.

## 1. XVII-XVIII Əsrin Milli İntibah Məfkurəsi

Bu dövr bütün parametrlərdə vətənqurma və tarixi yaddaş arxetiplərinin qorunmasına və uğurlu bir formulasının hazırlanmasına hesablandı. Nadir şahın hakimiyyətə gəlişi və böyük sərkərdəlik bacarığı onun etnik yaddaşda olan dövlətqurma missiyasını bütün aspektləri ilə reallaşdıra bilmədi. Ciddi fəaliyyət proqramı ilə ortaya çıxan Nadir şah özündən əvvəlki yeridilən farslaşdırma dəst-xəttinə sarsıdıcı zərbələr vursa da, onu sonuclandıra bilmədi. Daha doğrusu, mükəmməl siyasi-ideoloji konsepsiyanın olmaması nəticəsində özündən sonrakı dönəmlərin digər ağrılı problemlərinin yaşantısını qaçılmaz etdi. Milli mədəniyyət, milli təfəkkür və milli xarakter səviyyəsində gedən müəyyənlikli proses siyasi hakimiyyət və dövlət timsaılnda itirdiklərini geniş kütlə müstəvisində qoruyuculuğa yüklədi. N.Cəfərova görə, Azərbaycan intibahı milli xarakteri etnik (mifoloji) təfəkkür əsasında tərbiyə edir, ümumşərq normativliyi arxaikləşir, Azərbaycan kontekstində regional təzahürlər funksionallaşır; dialekt diferensiasiyasından müxtəlif mədəniyyət məktəblərinin (mühitlərinin) müəyyənləşməsinə qədər buraya daxildir. *"Milli təfəkkür [və mədəniyyət] milli mövcudluqla adekvatlaşır, bu isə, şübhəsiz, milli xarakterin normativləşməsi üçün mühüm şərt olur"* (Cəfərov, 2002: 19). Bütün bunlar isə var-gəllərlə arxetipləri, dövlətçilik məfkurəsini qorumağa və içəridən bir konsepsiya səviyyəsində özünü reallaşdırmağa yüklənir.

XVIII əsrin tarixi reallığı Nadir şahın fəaliyyət proqramında mərkəzləşməni bir xətt olaraq türklük müstəvisində reallaşdırsa da, onu konsepsiya səviyyəsində ortaya qoymaqda çətinlik yaşadı. Daha doğrusu, Nadir şahın sui-qəsd nəticəsində qətlə yetirilməsi mərkəzdən qaçmalara, xanlıqların yaranmasına (Qarabağ xanlığı Quba Xanlığı, İrəvan xanlığı, Qaradağ-Təbriz xanlığı, Naxçıvan xanlığı və s.) səbəb olmaqla həm də problemlərin daha ağrılı, mürəkkəbliklərlə dolu mərhələsini reallaşdırdı. Milli dövlət məfkurəsində xanlıqlar təfəkküründə vahid dövlət konsepsiyasını reallaşdıra bilmədilər və bu səhv son olaraq daha fəlakətlərlə dolu mərhələnin yaşanmasını qaçılmaz etdi. Azərbaycanın coğrafi əraziləri Rusiya və İran təcavüzü ilə ikiyə bölünməklə nəticələndi və bizim bugünkü iki yüz illik problemlərimizin yaşanmasının, imperiya ideolojisində erməni tipinin formalaşmasının konsepti işləndi. Əlbəttə erməni tipinin tarixi xalqın keçib gəldiyi yolda müxtəlif zaman

kəsiklərində, məsələn, Cavanşirin ölümündə (VII əsr), Babəkin əsir olunmasında (IX əsr) və s. hadisələrdə özünü göstərmişdi.

**2. Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni tarixində XIX əsr**

Bu əsr Azərbaycan üçün həm ictimai-siyasi, həm də ədəbi-mədəni problemlərlə dolu bir mərhələdədir. XVII əsrdən yeni sferaya daxil olan milli intibah XVIII əsrdə xalq şeiri ənənəsində və milli oyanışın zənginləşməsi sayəsində ictimai-sosial mühitin bütün tərəflərində öz töhfələrini verdi. Maddi və mənəvi mədəniyyətin arxeologiyasında nəzərə çarpan müəyyənlik prinsipi M.P.Vaqif, M.V.Vidadi, Ağqız oğlu Piri, Sarı Çobanoğlu, Xəstə Qasım, Kərbəlayi Səfi Valeh, Ağa Məsih Sirvani, Məhcur Şirvani, Şakir Şirvani və başqalarının timsalında normativləşir. Siyasi hakimiyyət və dövlətçilik səviyyəsində itirdiklərini mədəni mühit elat həyat tərzindən gələnlərlə doldurmaq yolunu tutur. Bütün bunlar prosesin on doqquzuncu yüzillik boyu hansı mürəkkəbliklərlə üzləşməsinə baxmayaraq, onu qoruma instiktinə köklənir. “Qarabağnamə”lər (Mirzə Camal bəy Cavanşir, Əhməd bəy Cavanşir, Adıgözəl bəy Qarabaği) sırf reallığın zərurəti olaraq meydana çıxdı və imperiya məfkurəsində olanlar timsalında yeni şəraitə uyğun konsepti ortaya qoydu. “Azərbaycan tarixi”ndə göstərildiyi kimi, XVIII əsrin sonu – XIX yüzilliyin başlanğıcında Azərbaycanın daxili və xarici siyasi vəziyyəti çox mürəkkəb idi. Əvvəl Şəki, sonra isə Quba xanlığının Azərbaycan torpaqlarını öz xanlıqları ətrafında birləşdirmək, vahid Azərbaycan dövləti yaratmaq cəhdləri boşa çıxdı. Buna bir tərəfdən ölkənin sosial-iqtisadi inkişafının geriliyi, digər tərəfdən xarici istilalar, şah İranı və çar Rusiyasının bu yerləri ələ keçirmək üçün Azərbaycana yürüşləri əngəl törətdi. *“Ayrı-ayrı xanlıqların hakimlərinin yalnız öz şəxsi mənafelərindən əl çəkmək istəməməsi, öz xanlığını qoruyub saxlamaq naminə bir-birinə güzəştə getməməsi bu işə əsaslı şəkildə mane oldu. Belə bir şəraitdə Azərbaycana göz dikmiş şah İranı və çar Rusiyasının işğalçı planlarına qarşı dura biləcək vahid qüvvə yox idi”* (Əliyev, 1993:203). Beləliklə, Azərbaycan Rusiya və İran tərəfindən işğala məruz qalmaqla prosesin daha ağrılı tərəfi ilə üz-üzə qaldı və imperiya məfkurəsində etnik yaddaşın zədələnməsinə yönəlik addımlar atılmaqla, ermənilərin məqsədli köçürülməsi işinə qərar verildi.

**3. Qərbi Azərbaycan və Qarabağda Demoqrafik Dəyişiklik**

İmperiyanın işğalçılıq konsepsiyasında demoqrafik mənzərənin dəyişdirilməsi və köçürülmə siyasəti bir məqsəd olaraq həmişə diqqət mərkəzində saxlandı. İranın müxtəlif bölgələrindən Qərbi Azərbaycana və Qarabağa, eləcə də digər ərazilərə ermənilərin yerləşdirilməsi prosesinə rəvac verilməklə siyasi strategiyanın sonrakı dönəmləri üçün əsas yaradıldı. Çar Rusiyasının işğalına qədər və işğaldan sonra, məsələn, 1812-ci il siyahıya alınmasındakı mənzərədə yerli əhali türklərin sayı on mindən çox olduğu halda üç minə enmişdi. Sonrakı proses daha çox ermənilərin köçü ilə səciyyələnir. İran, Türkiyə, Cənubi Azərbaycandan Şimali Azərbaycana Rusiyanın işğalı ilə XIX əsrin ilk onilliklərində erməni axınları başlayır. Məsələn, 1826-1828-ci illərdə on səkkiz min erməni ailəsi köçürülməsi prosesin artan istiqamətdə gedişini müəyyənləşdirir. Təkcə bir faktı vurğulayaq ki, İranla Rusiya arasında bağlanan Türkmənçay müqaviləsinə görə ermənilərin İrandan maneəsiz olaraq köçürülməsinə razılıq verildi (İsmayılov, 2007: 52). K.N.Şavrov yazır ki, *“iki il ərzində, 1828-ci ildən 1830-cu ilədək, biz Zaqafqaziyaya 40 mindən çox İran və 84 min Türkiyə ermənisi köçürdük və onları erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxış torpaqlarında yerləşdirdik: onlara 200 000 desyatindən çox xəzinə torpağı ayrıldı”* (Шавров, 1911: 59-60). Ümumiyyətlə, XIX əsr boyu gedən proses tam çılpaqlığı ilə Azərbaycanın tarixi torpaqlarında erməniləşmə xəttinin artan tonda gedişinə yönəldildi. İrəvan, Qarabağ, Tiflis, Gəncə (Yelizavetpol) və s. kimi ərazilərdə aparılan ideoloji xətt milli məfkurənin zədələnməsinə və erməniləşmənin dövlət səviyyəsində həyata keçirilməsinə hesablanmışdı. Rus və İran Fars şovinizmi bütün bunları kateqorial hadisə səviyyəsindən çıxarmaqla mövcud məfkurəni zədələməyə, etnosun ideoloji sistemini dağıtmağa üstünlük verməklə bir istiqamətdə erməniləşdirməni prinsip olaraq hədəfləmişdi. “Qafqaz və

Zaqafqaziya ölkəsinin idarə olunmasının dəyişdirilməsi haqqında" fərman (1867-ci ilin sonu) bunun siyasi-ideoloji qanadını müəyyənləşdirən xətt kimi işləndi (İsmayılov, 2007: 211).

Çar Rusiyasının Azərbaycana qarşı yeritdiyi siyasi dəst-xətt XIX əsr boyu ermənilərə məqsədli şəkildə tendensiyalı münasibət bəsləməsi üçün əsas oldu və son olaraq imperiyanın iyirminci yüzillikdə dağılması ilə Cənubi Qafqazda müstəqil dövlətlər yaranması prosesi reallaşanda Azərbaycanın tarixi torpaqları hesabına Ermənistan respublikasının elan olunmasını (1918) qaçılmaz etdi. Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən İrəvan Ermənistanın paytaxtı olmaqla böyük bir ərazi rus ideoloji sisteminin yeritdiyi uzunmüddətli xətt sayəsində itirildi (Vəliyev, 2009: 206). Beləliklə, xalqın etnik mədəni düşüncəsində oturuşmuş vətənçilik modeli sonrakı dönəmlərin ağır prosesləri üçün yeni bir mürəkkəbliklə üz-üzə qaldı.

Ədəbi-mədəni düşüncə və bütünlükdə toplum çar Rusiyasının və İran Fars şovinizminin Azərbaycanı işğalına və öz aralarında müəyyənləşdirdiyi bölgü prinsipinə biganə münasibət bəsləməmiş və əksinə həmişə kəskin qarşıdurmalarla məsələyə ciddi mövqe sərgiləmişdi. Siyasi sferada baş verən proseslərdən öncə və həm də daha kəskin mövqe nümayişi toplum səviyyəsində özünü göstərmiş və müxtəlif səpkili qarşıdurmalara yol açmışdır. Cavad xanla bağlı yaranmış müəllifi məlum olmayan nəğmə imperiya məfkurəsinin mahiyyətini ortaya qoyur və prosesin tarixi axarını bütün parametrləri ilə canlandırır:

*Görən-bilən eşidibən yansınlar,*
*Gör nə yaman oldu halı Gəncənin.*
*Bizə imdad etməz padşahzadə,*
*Məgər tutulubdu yolu Gəncənin*

*Bayraqları bürc üstündə qurdular,*
*Tifil uşaqları tamam qırdılar.*
*Ol vəqt ki, Cavad xanı vurdular,*
*Sanasan qırıldı beli Gəncənin* (Behcət, 2011: 279).

Abbasqulu ağa Bakıxanov, Mirzə Adgözəl bəy Qarabaği Gəncənin alınmasına qarşı Cavad xanın, bütünlükdə əhalinin fədakarlığını təfsilatı ilə təqdim edir. Dekabrist M.A.Muxanov "Gəncənin alınması" oçerkində mücadiləni qəhrəmanlıq və vətənpərvərlik nümunəsi olaraq təqdim edir və vurğulayır ki, rus generalı beşinci dəfə şəhərin təhvil verilməsini tələb etdi. Generalın "şəhəri alacağam və səni də öldürəcəyəm təhdidinə məğrur Cavad xan "sən qalada cənazəmi taparsan" deyə cavab vermişdi" (Əfəndiyev, 2018: 279). XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Molla Vəli Vidadinin "məni belə hər kim görsə bil ağlar", Mustafa ağa Arifin "ağlaram hər zaman düşəndə yada", Əbdürrəhman ağa Dilbazoğlunun "mən qəribəm vətənimdə qazılar" və s. bütünlükdə reallığı, tarixi mənzərədə baş vermiş işğalçılıq məfkurəsinin doğurduğu fəlakətləri özündə ehtiva edir.

Xalqın etnik tarixinin zənginliyi onun vətənqurma və dövlət tarixi ilə birgə addımlamaqla dövlətçilik ideyalarının formalaşması üçün əsas olmuşdu. Çünki dövlət konsepsiyası etnokulturoloji təfəkkürə dayanmaqla mükəmməl nizamın da bir prinsip olaraq qorunmasını toplum səviyyəsində zərurətə çevirmişdi. XIX əsrdə pozulmuş bu nizam siyasi arenanın müəyyənləşdirdiyi proseslər olanlardan daha çox xalqın təbii axarda problemi öz düşündüyü kimi həll etmək təsəvvürünə kökləndi. Milli mənlik şüurunun sıxışdırılması, toplumla münasibətdə özünü göstərən tendensiyalar narazılıqlara gətirib çıxardı və son olaraq qaçaq hərəkatını bir mübarizə tipi olaraq öz içində reallaşdırdı. Görkəmli tarixçi, dinşünas, etnoqraf B.Behcət qaçaq hərəkatının (Behcət, 2011: 279). XIX əsrin 20-ci illərindən, Rusiyanın Azərbaycanı işğalı zamanından başladığını qeyd etməklə onun mahiyyətini və mücadilə konsepsiyasının nəzəri sistemini aydınlaşdırır. "Qaçaq Nəbi", "Qara Tanrıverdi", "Qaçaq Kərəm", "Qandal Nağı", "Qaçaq Süleyman", "Səməd bəy" "Qaçaq İsmayıl", "Molla Nur" və s.

kimi dastanlar bütün mənzərəsi ilə pozulmuş nizamın bərpasına hesablanmaqla xalqın bağrının başından qopmuşdu.

Şimali Azərbaycan və Cənubi Azərbaycanda gedən tarixi proses biri-digərini izləməklə, daha doğrusu milli məfkurənin yeni şəraitə uyğun mücadilə konsepsiyasını hazırlamağı və etnosun özünütəşkil səviyyəsində (həm də özünüdərk) müəyyənliyinin işlənməsini zərurətə çevirdi. Şimalda Gəncə üsyanı (1826), Car-Balakən üsyanı (1830), Quba üsyanı (1837), Cənubda Tənbəki üsyanı (1891), Təbriz üsyanı (1906-1909), Cəngəlilər hərəkatı (1917-1921) və s. hamısı tarixi prosesin ümumi dinamik mənzərəsini ardıcıl olaraq sıralayır. Sosial-sferada baş verən proseslər milli-mənəvi etiketlərin zədələnməsi, iqtisadi tənəzzül, ruslaşdırma və farslaşdırma tendensiyası toplum səviyyəsində qarşıdurmalara, etiraz dalğalarının çoxalan müstəviyə çıxmasına əsas olurdu.

Ədəbi mədəni mühit problemlərin ümumi həllini maariflənmədə, xalqın milli-mədəni səviyyəsinin qaldırılması ilə baş vermiş müşküllərin öncüllənməsinə hazırlayırdı. A.Bakıxanovun, M.Ş.Vazehin, İ.Qutqaşınlının maariflənmə sahəsində ortaya qoyduğu konsepsiya H.Zərdabi, M.F.Axundov, M.Şahtaxtlı, İ.Qasprali, M.Mahmudbəyov, F.Köçərli, Ə.Hüseynzadə, Ə.Ağayev, M.Ə.Rəsulzadə şəxsində nəzəri sistemini işləyib hazırladı. XIX əsr Azərbaycan reallığının sosial siyasi, ictimai-fəlsəfi, ədəbi-mədəni konseptdə müəyyənləşdirdiyi məfkurə milli özünütəşkil prinsipindən çıxış etməklə proseslərin sonrakı mərhələlərinin gedişini düşünülmüş şəkildə yönləndirməyi məqsədə çevirdi. Çünki fars və rus şovinizminin müxtəlif yönlü, həm də məqsədli siyasətində milli müəyyənliyin pozulması və etnik demoqrafik mənzərənin sındırılması bir məram olaraq əsas götürülürdü. Ermənilərin İranın müxtəlif bölgələrindən Azərbaycanın tarixi torpaqlarına köçürülməsi dövlət səviyyəsində həyata keçirilən bir proqram-layihə olaraq reallaşdırılırdı və bunun perspektivləri prosesin başlanğıcından mükəmməl şəkildə işlənmişdir. Z.Məhərrəmova görə, Azərbaycan xanlıqları içərisində öz coğrafi mövqeyi, təbii şəraiti, əhlisinin yenilməzliyi və müxtəlif dövrlərdə hətta müstəqilliyi ilə fərqlənən İrəvan xanlığı, o cümlədən onun tərkibində olan Göyçə mahalı Rusiyanın müstəmləkəsinə çevrildikdən sonra onun azərbaycanlı əhalisinin 2,5 milyonu 1828-ci ildən 1990-cı ilədək mərhələlərlə didərgin salınmışdır. *"Adı çəkilən ərazilərdə azərbaycanlıların əsrlər boyu yaratdığı mədəniyyət və tarixi abidələri məhv edilmiş, türk mənşəli yerli toponimlər erməniləşdirilmişdir"* (Məhərrəmov, 2011: 5). XV əsrdən xanlıqlar dönəminə qədər olan mövcud xəritələrdə Qərbi Azərbaycan Göyçə, Dərəçiçək (Axta), Dərələyəz, Bayazid (Kəvər), Basarkeçər (Vardenis), Çənbərək (Qırmızı Nahiyə, Krasnaselo), Hamamlı (Spitak) və s. kimi böyük bir coğrafi ərazini əhatələmişdir. Son dərəcədə zəngin mədəniyyəti aşılayan bu bölgələr maddi və mənəvi arxeoloji qatı ilə möhtəşəm bir təsəvvürü formalaşdırır. Miskin Abdal, Ozan Heydər, Ozan İbrahim, Ozan Cəlil və s. onlarca, yüzlərcə sənət korifeyləri yetişdirmiş bu mühit unikal formulası ilə Oğuz-qıpçaq mədəniyyətinin mifoloji qatını bir dəyər, etnik kod olaraq müəyyənləşdirməsi ilə nəzər-diqqəti cəlb etmişdir. Y.Qarayevin yazdığı kimi: *"Doğrudur, vaxtilə bir bütün olan inzibati ərazimizdən tarixi folklor bölgələri əsrlər boyu tez-tez qopub düşüb. Ən böyük itkilər isə iki yüz ildə baş verib. Təkcə onu demək kifayətdir ki, ən səciyyəvi folklor bölgələri hamısı [əksəriyyəti] indi çağdaş milli-inzibati ərazidən çıxdaş olub, hüquqi-siyasi xəritədən kənarda qalıb: Göyçə mahalı, Çıldır-Ağbaba, Borçalı və Dərələyəz, Dərbənd və Kərkük-Tuz Xurmatı... Urmiya, Təbriz, Savə, Zəncan ilə ayrılığı mən hələ demirəm. Xəritəmiz yalnız folklorumuzda dəyişməyib, bütün qalıb"* (Qarayev, 2000: 3). Bütün bunlar mifik zamandan günümüzə gələn böyük bir mədəniyyət layının və onun yaradıcısı olan etnosun müəyyənləşdirdiyi mənəviyyat kosmosunun hansı dağıdıcı məfkurə ilə üz-üzə qaldığını, coğrafi-siyasi baxımdan hansı problemlərə sürükləndiyini aydınlıqla göstərir.

**Nəticə**

Qərbi Azərbaycan tarixi, mədəniyyəti və əhalisi baxımından böyük əhəmiyyət kəsb edən bir bölgədir. Bu məruzədə də Qərbi Azərbaycanın tarixi, mövcud vəziyyəti, qarşılaşdığı problemlər və onların həlli yolları araşdılmağa çalışıldı. Qərbi Azərbaycandan azərbaycanlıların kütləvi şəkildə köç etməsi, tarixi torpaqlarda demoqrafik dəyişikliyin

aparılması və bunun nəticəsində etnik-mədəni irsin təhlükə altına düşməsi əsas problemlərdən biridir. Bu məsələlər, həm tarixən, həm də müasir dövrdə ciddi müzakirələrə səbəb olmuşdur. Aparılan araşdırmalar və statistik məlumatlar göstərir ki, son əsrlərdə Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların sayı kəskin şəkildə azalmışdır. Bu prosesin əsas səbəbləri deportasiyalar, zorakı köçürülmələr və siyasi təzyiqlər olmuşdur. Eyni zamanda, tarixi abidələrin dağıdılması və mədəni irsin məhv edilməsi də müşahidə olunur.

Məsələnin həlli üçün müxtəlif yanaşmalar təklif edilə bilər. Birincisi, tarixi faktların beynəlxalq səviyyədə tanıdılması və bu mövzuda tədqiqatların genişləndirilməsi vacibdir. İkincisi, azərbaycanlıların hüquqlarının qorunması üçün diplomatik və hüquqi müstəvidə addımlar atılmalıdır. Üçüncüsü, Qərbi Azərbaycanla bağlı mədəni və tarixi irsin qorunması üçün xüsusi layihələrhəyata keçirilməlidir.

Qərbi Azərbaycan məsələsi tarixi, siyasi və mədəni cəhətdən böyük əhəmiyyət kəsb edir. Əldə olunan nəticələr göstərir ki, bu mövzuda həm ölkə daxilində, həm də beynəlxalq aləmdə geniş fəaliyyətlərin həyata keçirilməsi vacibdir. Gələcək prespektivlər arasında mədəni irsin qorunması, hüquqların müdəfiəsi və tarixi ədalətin bərbası əsas hədəflər kimi qalır.

Eyni zamanda, Qərbi Azərbaycan icmasının hüquqlarının müdafiəsi və onların öz tarixi torpaqlarına qayıtmaq hüququnun tanınması məsələsi ön planda saxlanmalıdır. Regional sabitlik və ədalətli həll yolu tapmaq üçün Azərbaycan dövlətinin və beynəlxalq təşkilatların birgə əməkdaşlığına ehtiyac var. Uzun müddətli perpektivdə, bu problemin həlli tarixi ədalətin bərpasına və bölgədə sülhün təmin olunmasına xidmət edəcəkdir.

**ƏDƏBİYYAT**

Gökalp, Ziya (1976). Türk medeniyeti tarihi. Güneş Matbaacılık, İstanbul.

Cəfərov, Nizami (2002). Azərbaycanşünaslığa giriş. AzAtaM, Bakı.

Əliyev, İ., (1993). Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər. Elm, Bakı.

Шавров, К.Н. Новая угроза. Русскому делу о Закафказье: предстоящая распродажа Мугана иностранцам / Санкт-Петербург, – 1911. – с. 59-60.

Əfəndiyev, P., (2018). Folklorşünaslıq məsələləri. Ləman MMC, Bakı.

Behcət, B., (2011). Qaçaq Nəbinin tarixi. Çıraq, Bakı.

Məhərrəmov, Z., (2011) Unudulmaz sazlı-sözlü yurdumuz. Çaşıoğlu, Bakı.

Qarayev, Y., (2000). Göyçəyə qayıdan yol folklordan keçir / Azərbaycan folkloru antologiyası. III kitab, Göyçə folkloru. Səda, Bakı.

Süleymanov, Nizami (2018). Azərbaycan Səfəvi Dövləti 1501-1736-cı İllər, İqtisad Universiteti Nəşriyyatı, Bakı.

İsmayılov, Mahmud (2007), Azərbaycan Tarixi, IV Cild, Bakı, Elm Nəşriyyatı, Bakı.

Vəliyev, T (2007), XX Əsr Azərbaycan Tarixi, II Cildi, Təhsil Nəşriyyatı, Bakı.